| **Məqsədlər** | 1. İştirakçıları layihənin icrası üçün praktiki alətlər ilə tanış etmək.<br>2. İştirakçılara həmin altətlərdən istifadəni praktiki olaraq izah etmək.<br>3. Müxtəlif metdoların üstünlükləri və çatışmazlıqlarını izah etmək. |
| | |

| | |
|---|---|
| **Proses**<br><br><br><br>15 dəq<br><br><br><br><br><br><br><br>1 saat<br><br><br><br><br><br><br><br><br><br><br><br><br><br><br><br>Fasilə<br><br><br><br><br>1 saat 15 dəq<br><br><br><br><br><br><br><br>15 dəq | **1.** 5 alətin qısa olaraq təsvir edilməsi və onların nə üçün istifadə edilməsinin **təqdimatı**. İştirakçılardan hansı alətlərdən istifadə etmək istədiklərini filiçartlarda yazmaqlarını xahiş edin. İzah edin bəzi alətlər yalnız kiçik qruplarda istifadə ediləcək daha sonra isə ümümi iştirakçılara təqdim ediləcək (məsələm, Venn diagram və ya Matriks qiymətləndirmə alətləri); bununla belə, təsir qrupları və vaxt cədvəli daha kiçik qruplarda hazırlanacaq və sonra hamıya təqdim ediləcək.<br><br>**2. Fəaliyyət**<br><br>İştirakçılar aşağıda seçdikləri alətlərə müvafiq olaraq qruplara bölünür və alətlərdən praktiki istifadə edirlər:<br>• Təsir qrupu: suallar hazırla, fasiliyetor seç və notları götür və s. Ümümi təqdimatdan (20 dəq) sonra işləyəcək təsir qruplarının necə seçilməsini müəyyənləşdir.<br>• Matriks qiymətləndirmə: böyük kağızdan istifadə edin. Əgər vaxt varsa müxtəlif matriks qiymətləndirilməsindən istifadə edin. Filipçart hazırlayın daha sonra ümumi qrupa təqdim edin.<br>• Venn diaqramları: bu Matriks qiymətləndirməsi kimi olacaq.<br>• Vaxt cədvəli: seçdiyin mövzuya uyğun olaraq vaxt cədvəli hazırla. Fasilədən sonra bütün qrupla birlikdə vaxt cədvəlini tamamla (25 dəq).<br>• Rolların oynanılması: bunu praktikadan keçir. Fasilədən sonra bütün qrupa təqdim et (maksimum 10 dəq).<br><br><br><br>**3. Təqdimatlar:**<br><br>Qruplar öz alətlərini təqdim edirlər. Hər bir təqdimatdan sonra alətlərin necə istifadə olunduğunu, çətinlikləri və bu alətlərdən layihənin planlaşdırılmasında və icrasında nə zaman və necə istifad olunduğunu müzakirə et.<br><br><br>**4. Nəticələr**<br><br>İştirakçıları dəvət et hazırladıqları alətlər barədə məlumat versinlər və onlardan öz layihələrində istifadə edib-etmədiklərini bildirsinlər. İştirakçılardan soruş ki, o hansı alətlərdən öz fəaliyyətində istifadə etmək niyyətindədir. |

| | |
|---|---|
| | Bu mövzuda istifadə edilə bilinəcək ədəbiyyatları və internet ünvanlarını bildir (məs. M və E üçün IFAD bələdçisi).<br><br>*Əsas öyrənilən məqamlar*<br><br>• *Müxtəlif alətlərdən düzgün istifadə*<br>• *Metodlardan yaradıcı istifadə*<br>• *Alətlərdən istifadə də inam və onlardan öz işində istifadə*<br>• *Alətlərdən istifadə də motivasiya və onlardan istifadənin əhəmiyyəti.* |
| | 2 saat 45 dəq |
| **Materials**<br><br>**Slaytlar**<br><br><br><br><br><br>**Power Point**<br><br>**Flipçartlar** | Böyük ölçülü filipçart kağızlar, müxtəlif rəngli A5 kartlar, qələmlər, qayçılar,<br><br>Alətlər üzrə slyatlar<br>Alət 1: Təsir qrupları<br>Alət 2: Matriks qiymətləndirmə<br>Alət 3: Venn Diaqramları<br>Alət 4: Vaxt Cədvəli<br>Alət l 5: Rolların Oyanılması<br><br>yoxdur<br><br>5 alətin təsviri |

# Alətlər

**<u>Texnikası</u>**

**Dinləyici sorğu**

Bu sorğu insanların müxtəlif vəziyyətlərdə (məs. Avtobusda, çörək növbəsində, gənclər klubunda və s.) nə deməlırinə qulaq asmaqla hazırlana bilər və cavablar insanlar, mövzular və s. üzrə qruplaşdırıla bilər.

**Rolun Oynanılması**

Qrupların rolu cəmiyyətdə dəyişikliklərə nail olmaqdır. Müxtəlif qruplar eyni vəziyyətdə müxtəlif rollar oynaya bilərlər. Müxtəlif qruplar eyni problem necə görməsi barədə öz şərhlərini də verə bilərlər.

**Arzular və ya Baxışlar**

Bu insanların hansı dəyişiklikləri öz cəmiyyətində görmək istədiklərini göstərir. M&E meyarların müəyyənləşdirilməsi və eləcə də layihənin planlaşdırılması üçün yaxşı bazanın yaradılmasl üçün vacibdir. 2-5 irəliyə baxsanız sizing xeyli zamanınız var. Fərdi olaraq gələcək ilə bağlı oxşar arzuları olan insanlar ilə birlikdə qrup yaradın və qrup şəkilində fəaliyyət göstərin.

**Ən vacib dəyişikliklər**

İştirakçılar öz cəmiyyətlərində görmək istədiklər dörd mühüm dəyişiklikləri yarada bilərlər (qadınların müdafiəsi, gənc insanların icma işlərinə cəlb edilməsi, onlara inamən artması və yerli hakimiyyət orqanları ilə əməkdaşlıq). Qrupda qadınların müdafiəsi ilə bağlı son illər həyata keçirilən ən mühüm dəyişikliyin nədən ibarət olduğunu soruş. Cavablar neqativ və pozitiv ola bilər.

## Xərtələr

**Xərtənin çəkilməsi**

İcmanın xərtəsi ərazilərin sexmli çəkilməsidir, bundan yerləşməni və eləcə də icmanın hansl resurslardan istifadə etməsini müəyyənləşdirmək üçün istifadə edilə bilər. Bu məqsədlə müxtəlif məlumatlardan istifadə edilə bilər təbii ki, əgər xərtə müxtəlif qruplar (məs. qadın, uşaqlar və s.) tərəfindan hazırlanırsa.

## Zaman

**Vaxt cədvəli**

Müəyyən vaxt müddətində fərdlərin, ailələrin, icmaların və ya təşkilatın həyatında baş verən əsas hadisələri təsvir edir.

**Mövsümi Təqvimlər**

Bunlar mövsümlə bağlı olaraq iqlim, gəlirlərin yaranmasına ünvanlanan fəaliyyətlər, səhiyyə və xəstəliklər və digər hadisələr və ya mövzular üzrə baş verən dəyişiklikləri özündə əhatə edir.

**Zaman trendləri**

Bu qrafiklər hadisələrin müəyyən zaman müddətində necə dəyişdiyini özündə ehtiva edir. Zaman trendləri müxtəli meyarlar üzrə formalaşdırıla bilər; əkin sahələri, qiymətlər, uçot stavkası, miqrasiya, məktəblər və s. istiqamətlər qruplaşdırılır.

**Gündəlik dəyişiklikləri xarakterizə edən diaqramlar**

Bu müxtəlif qrup insanların həyatına baş verən gündəlik dəyişiklikləri izləməyə imkan verir. Bu eyni zamanda tədbirlərin keçirilməsi üçün uyğun zamanların tapılması üçün əhəmiyyətlidir.  Bu eyni zamanda dəyişiklikləri qiymətləndirmək və onları uyğunlaşdırmaq baxımından da əhəmiyyətlidir.

**Gəlirlərin Təhlili Diaqramları**

Bu ailələrin davranışlarının, qərarlarının və eləcə də strategiyalarının müxtəlif social-iqtisadi dəyişikliklərdə necə dəyişməsini xarakterizə edir. Bu təhlildə aşağıdakı indikatorlardan istifadə edilir: gəlirin mənbələr üzrə bölgüsü, müxtəlif xərc maddələri, kredit və debit.

**Qrafiklər və Şəkillər**

**Axın Qrafikləri**

Bu layihənin təsirlərini və eləcə də dəyişiklikləri təhlil etmək üçün səbəbləri, effektləri və münasibətləri göstərən alətdir. İnsanlar, institutlar, resurslar və s. diaqramlarda əks etdirilə bilər. Bu diaqramlar onlar arasındakı münasibətlərin necə dəyişdiyini göstərir. Məsələn, siyasi, iqtisadi və mədəni faktorlar arasındakı münasibətlər ətraf mühütün daha da korlanmasına səbəb ola bilər; cəmiyyətdəki əsas dəyişikliklərə təsir göstərə bilər.

**Venn Diaqramı**

Venn Diaqramı müxtəlif növ dairələrin cəmidir- hər bir dairə hər hansı bir institute təqdim edir və cəmiyyət və ya ailələr arasındakı münasibətləri və institutların buna necə təsir göstərdiyini əks etdirir. Dairələrin ayrı-ayrı təsvir edildiyi hal isə onlar arasında münasibətlərin olmadığını göstərir. Daha güclü qruplar və ya frədlər daha böyük dairələrə malikdirlər.

**Reytinq vermə**

İnsanlar müəyyən prioritetlər əsasında siyahılar tərtib edirlər və sonradan onlara səs verərək reytinq cədvəli formalaşdırırlar.

**Sərvət və gəlirlilik reytinqi**

Bundan cəmiyyətdə sərvətlər arasındakı fərqi və eləcə də qeyri-bərarbərliyi göstərmək üçün istifadə edilir. Bu eyni zamanda layihə ən kasıb insanlara ünvanlanan zaman daha faydalı olur. Bu zaman siyahı tərtib edilir və insanlar və ya ailələr arasında aparılan sorğu əsasında onların sərvətləri müəyyənləçdirilir. Adətən bu zaman 3 kateqoriyadan istifadə edilir: yoxsullar, orta və varlı sinif.

**Videolar və Şəkillər**

**Şəkillər**

Eyni məkanda müxtəlif zamanlarda şəkillər çəkilə və dəyişikliklər göstərilə bilir.

**Videolar**

Müsahibələr və başqa müzakirələrdə videolardan istifadə edilər bilər və sonradan onlardan istifadə edilə bilər.

# Qrup Tapşırığı
# Tətbiqi Metod:

## Alət 1

## TƏSİR QRUPLARI

**İzahat**

Təsir qrupları qrup müzakirələri vasitəsi ilə həyata keçirilir və müsahibə götürən qrup üzvlərinə müxtəlif suallar ünvanlayırlar. Qrup üzvləri isə bu suallara cavab verməklə müzakirələri təşkil edirlər.

**NƏ ÜÇÜN TƏSİR QRUPLARINDAN İSTİFADƏ EDİLİR?**

Qrup müzakirələri vasitəsi ilə geniş baxış dairəsi formalaşdırılır və bu zaman müzakirə edilən məsələyə yeni yanaşmalar əldə edilə bilir. Bununla çoxlu sayda informasiyalar əldə edilir, mövzu ilə bağlı müxtəlif fikirlər ümumilləşdirilir. Qrup müzakirələrin məqsədi insanların üz-bə-üz müsahibələr vasitəsilə aşkara çıxarıla bilinməyən yanaşmalarını, düşüncülərini, inaclarını, təcrübələrini və s. öyrənməkdir.

**NEÇƏ İŞTİRAKÇI OLMALIDIR VƏ HANSI ZAMANDA?**

Qrup müzakirələri üçün ideal variant iştirakçılarln sayının 6-10 arasında olmasıdır, bu zaman hər bir şəxsə öz fikirini bildirmək imkanı vermək olur. İdeal zaman ise 1.5-2 saatdır.

**KİMİ DƏVƏT ETMƏLİ?**

Adətən ümümi tərəflər olan (məsələn, uyğun fəaliyyət, yaş, müxtəlif gender və s.) 6-10 iştirakçı müzakirələrə cəlb edilir. Bu ona görə vacibdir ki, eyni məsələyə müxtəlif qrup insanların (yaş və ya gender və s.) baxışlarını müəyyənləşdirmək mümkün olsun. Məsələn, məsələn cavan anaların hər hansı bir prqram və ya məsələ ilə bağlı fikirlərini öyrənmək və bunu yaşlı anaların baxışları ilə müzakirə etmək. Bu zaman çalışmaq lazımdır ki, iştirakçılar qrup müzakirəsinədək bir-birlərini tanımasınlar. Çünkü iştirakçılar bir-birlərini tanımayanda daha açıq və özlərinə daha inamlı danışırlar.

**YER VƏ MÜHÜT**

Müzakirələrin keçirildiyi yer rahat və əlverişli olmalıdır. Əgər müzakirəyə dəvət edilən iştirakçılar bir-birlərini tanımırlarsa daha yaxşı olar ki, müzakirələrə başlamamışdan öncə onlara bir-birləri ilə tanış olmaq üçün müəyyən qeyri-formal zaman verəsən. Bu insanların müzakirələrdən əvvəl müəyyən qədər yüngülləşməsinə səbəb ola bilər. Əgər görüşdən əvvəl heç də insanların hamısı bir-birləri ilə tanış olmurlarsa o zaman onların hər birinə özləri, ailələri haqda danışmaq üçün 5 dəqiqə vaxt verir. Bundan

sonra isə artıq qrup müzakirələrinə başlamaq mümkündür, bu zaman qrup müzakirələri daha asan keçiriləcək.

Qrup müzakirələrində mövzu ilə bağlı müəyyən alətlərin gətirilməsi də məqsədə uyğundur. Məsələn, əgər müzakirələr köprənin necə böyüdülməsi ilə bağlıdırsa o zaman müzakirələrə uşaq oyuncaqları gətirilə bilər. Və ya müzakirəllər müəlimlər ilə aparılırsa müzakirə otağına kitablar və başqa uyğun əşyalar gətirilə bilər...

**TƏSİR QRUPLARI ÜÇÜN TƏLƏB EDİLƏN İNSANLAR**

- Müzakirələr zamanı sualların auditoriyaya ünvanlanması və eləcə də müzakirəkərin təşkili üçün 1 və ya 2 fasiliteytərin olması vacibdir- onların mövzu ilə bağlı təcrübələrinin və eləcə də bliklərinin səviyyəsinin yüksək olması əhəmiyyətlidir.
- Notları götürən- bir nəfər müzakirələrin yazılmasına məsul olmalıdır.
- Təşkilatı məqsədi ilə digər insanlar- çay fasilələrinin təşkil və ya uşaqlara baxmaq üçün və s.

**SUALLARIN HAZIRLANMASI**

Təsir qrupunun müxtəlif fazalarında istifadə edilməsi üçün suallar hazırlanır. Üç növ suallar haqqında düşünmək daha faydalıdır:

- İştirakçıların mövzu ilə bağlı düşünməsi üçün ümumi suallar
- İstənilən informasiyanın əldə edilməsi üçün daha spesifik suallar
- Daha detal suallar– izləyici suallar– bu daha detal və daha spesifik məlumatları əldə etmək üçün vacibdir. Bu zaman daha dərindən başa düşmək üçün "nə üçün" və yenə də "nə üçün" suallarını vermək olar.

Əvvəlcədən müzakir üçün 10 sual hazırla. Suallları qruplaşdıra da bilərsən. Sualların verilməsi ardıcıllığı müzakirələrin istiqamətindən asılı olaraq müəyyənləşir. Eyni zamanda, əgər sən düşünürsənsə əvvəlcədən hazırladığın sualların heç də hamısını verməyə ehtiyac yoxdur, o zaman bütün sualları soruşma.

Suallar çox detal olmamalıdır. Sadəcə suallar başa düşülən olmalıdır və müzakirələrə stimul yaratmalıdır. Daha yaxşı olar ki, sualları pilot qrupla müzakirə edəsən, o zaman həmin sualları inkişaf etdirmək imkanı qazanırsan.

**MÜZAKİRƏLƏRİ NECƏ MARAQLI ETMƏK OLAR**

Fasliteytor çalımalıdır müzakirələr müzakirələrin mövzusuna uyğun olaraq aparılsın, amma eyni zamanda iştirakçılara imkan verilməlidir ki, mövzuya yaxın olan məsələlərə toxunulunsun. Bu müzakirələri daha çevik edir və yeni məlumatlar verir və eləcə də iştirakçıları təşviq edir ki, öz təcrübələrini və ya fikirlərini bölüşə bilsinlər.

Sən iştirakçıların daimi olaraq müzakirələrdə qalmağa çalışmalısan. Əgər hiss etsen ki, müzakirələr mövzudan yayınır və ya çox fərdiləşir o zaman başqa sualı ver və iştirakçıları yenidən müzakirələrə qaytar.

*Nəhayət, sualları cavablarını ümumilləşdirmək çox vacibdir. Çünki cavablar təhlil edilməsə və ya ümumilləşdirilməsə iştirakçılar müzakirələrin gərəksiz olduğunu*

*düşünər. Əmin olmalısan ki, bütün yanaşmaları ümumiləşdirmədə əhatə edə bildin. Sən özün belə bir ümumiləşdirmənin apara bilərsən və ya iştirakçılardan xahiş edə bilərsən ki, özləri bunu etsinlər. Oldquca vacibdir ki, iştirakçılara xatırladasan ki, bu debat deyil, sadəcə yanaşmaların müzakirəsidir.*

## TƏSİR QRUPUNUN GÜNDƏLİYİ

Sənin təsir qrup müzakirələrin aşağıdakı mərhələləri əhatə etməlidir:

- Salamlaşma
- Niyə biz buradayıq- özünu və başqa fasiliteytorları təqdim et
- Görüşün məqsədlərini izah et: - sən görüşdən nə gözləyirsən və nə üçün bu müzakirələr vacibdir. İzah et ki, sənin üçün *iştirakçıların fikirləri* olduqca vacibdir. *Bu debat deyil.* Heç kim başqasını onun fikirləri ilə razılaşmağa məcbur etməməlidir. Burada "düzgün" və "səhv" cavablar yoxdur. Buna görə də, biz bütün iştirakçıların öz fikirlərini bölüşəcəyini, öz təcrübələri barədə danışacağını gözləyirik. İştirakçılar öz ideyalarlnı, baxışlarını bizimlə bölüşsələr bu bizim üçün çox faydalı olar.
- Müzakirələrin necə qeydə alınacağını de (diktafona yazılacaq, yoxsa sadəcə qeydlər götürüləcək və s…)
- Yazılacaqsa nə baş verəcək? Bütün yanaşmalar gizli qalacaq. İzah et, iştirakçıların adları qeyd ediləcək ya yox və eləcə də müzakirələr anonym qalacaq ya yox. Müzakirələrin nəticələri ilə iştirakçıların tanış olmaq imkanları olacaqmı? Bu mərhələdə şəffaf olmaq olduqca vacibdir.
- Təqdimatlar
- Müzakirələr– bu mərhələ artıq yuxarıda izah edilmişdir.
- Yekun– bütün iştirakçılara müzakirələrə qatıldığı üçün təşəkkür et. Onlara bird aha de, müzakirələr necə işlənəcək, onlara müzakirələrin yekunları təqdim ediləcək ya yox ….

## BİZ NİYƏ TƏSİR QRUPLARINDAN İSTİFADƏ EDİRİK?

- Tədqiqat üçün: bu o zaman vacibdir ki, biz xüsusi qrupların üzləşdiyi məsələləri daha dərindən öyrənməyə çalışırıq. Bu bizə konkret məsələləri daha dərindən başa düşməyə yardım edir.
- Mövzunun sərhədlərini müəyyənləşdirməyə yardım edir. Bu əvvəlki səbəbə uyğun gəlir, sadəcə burada söhbət ondan gedir ki, bu fəaliyyəti planlaşdırmağa yardım edir və eləcə də müxtəlif rəylər əsasında öz işini də qiymətləndirə bilirsən.
- Mövzu ilə daha dərinləşdirilmiş yanaşmaya imkan verir.
- Bu qrup müzakirələri vasitəsi ilə rəylərin necə formalaşdığını və eləcə də necə dəyişdiyini görməyə imkan verir.

## NƏTİCƏLƏRDƏN İSTİFADƏ

Əgər sən qrup müzakirələrdə qeyd edilən fikirlərdən öz hesabatında istifadə etmək istəyirsənsə o zaman qeydləri götürən zaman fikirləri olduğu kimi yazıldığına xüsusi diqqət yetirməlisən. Eyni zamanda fikirlərini qeyd etdiyin insan haqqında daha detal məlumatları (yaşı, iş yeri, cinsi və s.) da göstərməlisən. Əgər yekun hesabatda qrup müzakirədə iştirak edənlər anonim saxlanılacaqsa o zaman iştirakı ilə bağlı bəzi məlumatları qeyd etsən də belə onun adını qeyd etməməlisən.

*Eyni zamanda yadda saxlamaq lazımdır ki, qrup müzakirələrində olan fikirləri daha geniş kateqoriyanın fikirləri ilə eyniləşdirə bilməzsən. Bu heç de təsir qrupunun məqsədi deyil. Məqsəd sadəcə mövzunu müxtəlif insanların baxışı acısından qiymətləndirməkdir.*

**FASİLİTEYTORUN BİLİKLƏRİ**

Qrup müzakirələrində açıq, tolerant, qarşılıqlı ittihamın olduğu mühitin formalaşdırılması olduqca vacibdir. Bu insanların öz fikirlərini sərbəst ifadə etməsinə imkan yaradacaq. Fasiliteytor cavabları aydın verilə biləcək sualları iştirakçılara ünvanlamalıdır. Əlavə məlumat almaq lazım gəldiyi hallarda gücləndirici suallar verilə bilər. Fasiliteytor müzakirə edilən məsələlər ilə bağlı öz şəxsi fikirlərini bildirməkdən çəkinməlidir. Onun işi heç də müzakirələri müəyyən istiqamətə yönəltməkdən ibarət deyildir.

## VƏZİFƏ

Mövzunu seç və müzakirələrin təşkil edilməsi üçün suallarını öncədən hazırla. Qrupun müxtəlif üzvləri arasında vəzifələri bölüşdür (qeydləri aparan, fasiliteytor və s.) Qrup müzakirələrində könüllülərdən istifadə et.

# Qrup İşi
# Təsirin Qiymətləndirilməsi Tapşırığı

## Alət 2
## Matriks Qiymətləndirilməsi

**Məqsəd:**

Məqsəd məhz müxtəlif fikirlər, müxtəlif mövzullar, müxtəlif həlləri fərqli zamanlarda müqayisə etmək imkanını qazanmaqdır. Matriks qiymətləndirməsi ən yaxşı ideyaların meyarları necə qarşıladığını göstərir. Bu metod həmçinin insanların fikirini başa düşmək üçün istifadə edilə bilər, məsələn, müxtəlif təşkilatların xidmətləri zamandan asılı olaraq dəyişir və ya problem həll etmək üçün müxtəlif fəaliyyətlər həyata keçirilə bilər.

**Necə:**

1. Əvəlla, nəyi müqayisə etmək istədiyini öncədən müəyyənləşdir. Aşağıda qeyd edilən qərar matriksi sənə imkan verir ki, kənddə hansı ağacların yetişdirilməsini müəyyənləşdirəsən.
2. Müzakirə et və razılşadır ki, nələri iştirakçılara göstərmək istəyirsən.

3. Bu metodun qiymətləri müzakirələrdən doğur; iştirakçılar müzakirələrin yekunu olaraq hansı meyara, faktora və ya fikirə qiymət verməsini müəyyənləşdirirlər.
4. Bütün meyarlar eyni yanaşma ilə cümlələr ilə ifadə edilməlidir, məsələn, pozitiv və ya neqativ mənada qruplaşdırıla bilər (pozitiv fikirlərə verilən qiymət neqativlərə veriləndən fərqli ola bilər)
5. Qiymətləndirmə meyarlarını öncədən müəyyənləşdir: sən hər bir meyar üzrə qiymətin maksimum həddini, və ya bütün meyarlara veriləcək qiymət üçün maksimum hədd müəyyənləşdirə bilərsən.

| Fruit tree | Good taste | Easy to sell | High productivity | Less land occupation | High market price | Total |
|---|---|---|---|---|---|---|
| Little apple | **** | **** | ***** | ***** | **** | 22 |
| Walnut | ***** | ***** | ***** | * | ***** | 21 |
| Peach | ***** | *** | **** | **** | *** | 19 |
| Persimmon | ** | ***** | ***** | ** | ***** | 19 |
| Plum | *** | ** | ***** | ***** | ** | 17 |
| Pear | ***** | ** | ** | ** | ** | 13 |
| Apple | ***** | * | ** | **** | * | 13 |

6. Qiymətləndirməni qrup olaraq apar. Müzakirələr vasitəsi ilə razılığın əldə edilməsi olduqca vacibdir. Qrupda qiymətləndirmə ilə bağlı kansesusun alınması olduqca əhəmiyyətlidir.

**Tapşırıq**

1. Hansı mövzunu müzakirə edəcəyini müəyyənləşdir.
2. Yuxarıda qeyd edilən formada matriks hazırla.
3. Əgər zamanın varsa o zaman başqa qiymətləndirmə sistemi olan matriks hazırla.
4. Qrupla müzakirələrdə faydalı hesab etdiyin məqamları və eləcə də çətinlikləri müzakirə et.
5. Filipçartdan istifadə etməklə əhəmiyyətli fikirlərin qeydiyyatının və müzakirəsinin aparılmasını unutma.

# Qrup İşi
# Tətbiqi Metod:

# Alət 3
# Venn Diaqramları

**Məqsəd:**

Cəmiyyətdəki insanların, təşkilatların, layihələrin və ya xidmətlərin bir-biri ilə hansı səviyyədə əlaqəli olduğunu göstərmək və onların bağlılığının vacibliyini müəyyənləşdirmək. Bu həmçinin münasibətlərin keyfiyyətini və eləcə də onların necə dəyişməsini monitor etməyə imkan verir.

**Proses:**

1. Bu mövzulardan birini seç:
   a. Kiprdə vətəndaş cəmiyyətinin dəstəklənməsinə cəlb edilən müxtəlif qrupların müqayisəli vacibliyi– 5 il əvvəl və indi.
   b. Sənin təşkilatlarından biri ilə (donorlar, tərəfdaşlar, nazirliklər və s.) əməkdaşlıq edən bütün qrupların müqayisəli əhəmiyyəti
   c. Kiprdə ətraf mühit ilə əlaqəli işləyən bütün təşkilatların müqayisəli əhəmiyyəti- 5 il əvvəl və indi.
   d. (və ya özün müəyyənləşdir)

2. Əmin ol ki, hamıya nə ilə məşğul olacağı tam aydındır: bir cəmiyyətdə qrupların, insanların, təşkilatların əhəmiyyəti və onların seçilmiş mövzu ilə qarşılıqlı əlaqəsi. "Əhəmiyyətlilik" deyəndə nəyi nəzərdə tutduğunu müəyyənləşdir: bu
   a. Onların seçilən mövzuya təsir imkanları
   b. Onların sənin təşkilat və ya layihə ilə əməkdaşlıq səviyyəsi ola bilər

3. Müxtəlif qrupların, insanların və təşkilatların seçilmiş mövzuya hansı səviyyədə əlaqəsi olduğunu qrupda müzakirə et və filipçartda qeydlər apar. 15-20 əsas məqamları qeyd et.
4. Öz təşkilatını təqdim etmək üçün böyük kağızda böyük dairə çək və onu otağın ortasında yerləşdir
5. Sonra qeyd etdiyin bütün təşkilatlar və insanlar üçün eyni formada dairə hazırla. Dairələrin həcmi oldquca vacibdir: daha mühüm və təsirli təşkilatlar üçün daha böyük dairə çək.
6. Dairələri birinci dairəyə yaxın yerləşdir: ən yaxın dairələr həmin təşkilatlar arasında daha yaxın əlaqənin olduğunu göstərir.
7. Sən öz dairəndən digərlərinə linklər çəkməlisən.
8. Müəyyən zamanda dəyişiklikləri göstərmək üçün iki müxtəlif diaqram çək və müqayisə et.
9. Daha böyük qrupa məlumatı necə təqdim etmək istədiyini müzakirə et və qısa təqdimat hazırla.




Venn Diaqramlara nümunələr. Bu şəkildə üçbucaqlar fərdləri göstərir. Böyük dairə isə kəndi təsvir edir.

**Venn Diaqramları üçn Vəzifə:**

- Hansı mövzunu müzakirə etmək istədiyini müəyyənləşdir.
- Yuxarıdakı kimi diaqram hazırla.
- Əgər vaxtın varsa ikinci diaqramı hazırla.
- Qrupla müzakirələrdə faydalı hesab etdiyin məqamları və eləcə də çətinlikləri müzakirə et.
- Filipçartdan istifadə etməklə əhəmiyyətli fikirlərin qeydiyyatının və müzakirəsinin aparılmasını unutma.

# Qrup İşi
# Tətbiqi Metod:

# Alət 4
# Zamancədvəli

**Məqsəd**:

Bu metod bütövlükdə vəziyyəti, problemi təsvir etmək vı ya layihədə iştirak edən bütün steykholderlərinproblemə yanaşmanı göstərmək vasitəsi ilə planlaşdırılan fəaliyyətlərin icrasına təsir göstərir. Bu qrupa keçmişi təhlil etməklə gələcəkəd nələrin edilməli olması ilə barədə müzakirələr aparmağa imkan verir.

**Materiallar:** böyük ölçülü filipçart, A5 ölçülü müxtəlif rəngli kartlar, hər bir iştirakçı üçün markerlər.

**Time:** Qrup üzvlərinin sayından asılı olaraq– daha idealı 1 saatdır.

**Qrupda iştirakçıların sayı:** Ən azı 8

**Proseduralar:**
1. Cartları ilin aylarının üzərlərinə düz (hansı vaxt zamanını götürməyindən asılı olaraq).
2. İştirakçılar 4 qrupa böl və onlardan hər bir ay üçün əhəmiyyətli bildikləri hadisəni kartda qeyd etmələrini istə.
3. Kartları topla və onları diqqətlə oxu, daha sonra hadisələri kağızda ayların qarşısında qeyd et.
4. Nəticələri qısa olsa da ümumilləşdir və müzakirə et.
5. Qrupla bu dəfə yeni kartlara yazmağa başlayacaqlar və daha detal olaraq qeyd edəcəklər.
6. Dəyişikliklər müddətinə bax, yeni kartlar ilə dəyişiklikləri qeyd et.
   Qrupla bu dəyişiklikləri müzakirə et. Bundan nə öyrəndik? Keçmişin bu günki həyatımıza təsiri necədir? Gəcələk üçün nələri öyrəndik?
7. Qrupdan gələcklə bağlı fikirlərini bildirmələrini istə.

**İzahatlar / Rəylər:**

- Bu metod qrupun keçmişi müzakirə etməklə gələcək üçün müəyyən nəticələr çıxarmasın imkan verir.
- Bu gələcək strateji planlaşdırma üçün olduqca vacibdir.
- Vaxt cədvəli müxtəlif qruplar, steykholderlət tərəfindən müxtəlif rənglə rənglənir- hadisələrə yanaşma eyni deyildir.
- Vaxt müsbət və mənfi hadisələri də bir-birindən ayırmağa imkan verir.
- Layihənin icrasına təsir göstərən xarici faktorları nəzərə almaq mümkün olur.
- Bu sözlərin əvəzinə şəkillər vasitəsi ilə də göstərilə biər.
- Bu fəaliyyət təlimin birinci mərhələsi üçün olduqca əhəmiyyətlidir. Bu o deməkdir ki, gələcəyə ümumi yanaşma formalaşdırmaq olar. Bu zaman son məhsul olmur, amma düzgün planlaşdırma üçün əsas yaradılır.

**Tapşırıq**

1. Qrupda müzakirə etmək istədiyin mövzunu müəyyənləşdir
2. Sesiyanın birinci saatında müəyyən praktiki fəaliyyətlər həyata keçirin.
3. Bundan sonra seçdiyiniz mövzu üzrə müzakirələrə başla.
4. İkinci sesiyada artıq qrup iştirakçıları tapşırıqları həll edəcəklər.
5. Prosesin necə getdiyini müzakirə et. Qrup üzvlərin kartlar təqdim et, yazılmış kartları divarlara yapışdırın.
6. Bu mərhələ üçün 25 dəqiqə ayır.

# Group İşi
# Tətbiqi Metod:

## Alət 5
## Dram / Rolun Oynanılması

**Məqsəd:**

Bu insanlara öz həyat tərzlərini səhnələşdirməyə, layihədə və ya proqramda nəzərdə tutulan məsələləri səhnə vasitəsi ilə müzakirə etməyə imkan verir. Dram layihənin nəticəsi kimi dəyişiklikləri müəyyənləşdirməyə və indikatorları tapmağa imkan verir.

**Necə:**

1. Qrupda hansı hadəsini dram vasitəsi ilə göstərmək istədiklərini soruş.
2. Müəyyənləşdir ki, sən nəyi göstərmək istəyirsən:
    a. Müxtəlif insanların yanaşmlarını, məsələn, sənin yaşadığın ərazidə yeni icma mərkəzi yaradıldıqdan sonra insanların baxışları dəyişəcək və təbii ki, bu zaman səhnələşdirilən problem fərqli olacaq
    b. Bu hadisədən əvvəlki və sonrakı vəziyyət
    c. Sənin müzakirə etmək istədiyin problem insanların görmək istədiyi dramdır.
3. Qrupda hər bir iştirakçıya qısa rol ver (maksimum 10 dəqiqə).
4. Otaqda olan istənilən mebeldən istifadə edə bilərsən.

Əlavə məlumat üçün bax;
http://www.pactworld.org/resources/documents/PACTPISA_Book2.pdf

| **Layihələrin/ Proqramların Monitorinqi və Qiymətləndirilməsi** | |
|---|---|
| **Məqsədlər** | • İştirakçılar monitorinq və qiymətləndirmə ilə bağlı yaranan çətinliklərin aradan qaldırılması strategiyalarını müzakirə edə biləcəklır.<br>• İştirakçılar öz layihələri üçün monitorinq sistemləri formalaşdıracaqlar. |
| **Proses**<br><br>15 dəq<br><br><br><br><br><br><br><br><br><br><br><br><br><br><br><br><br><br><br>20 dəq<br><br>30 dəq<br><br><br><br><br><br><br><br><br>10 dəq | 1. **Təqdimat / Fəaliyyət:** İştirakçılardan körpənin dünyaya gəlməsini təsvir etməsini xahiş edin. Təsəvvür edin ki, siz dünyaya uşaq gətirisiniz (yalnız qadın iştirakçıların müzakirəsi üçün). O zaman otaqda nə baş verəcək? Hansı alətlərdən istifadə edilməlidi? Nə üçün və necə?<br><br>2. Filçartda 'Monitorinq' sərlövhəli list hazırla.<br><br>Doğuş prosesində nələr edilir? Uşaq necə dünyaya gəlir? Burada həkimlər özlərini necə aparmalıdırlar?<br><br>3. Filçartda 'Qiymətləndirmə' sərlövhəli list hazırla. Bu prosesin müvəffəqqiyyətlə həyata keçməsini nə göstərir? Kimin fikirləri daha önəmlidir (Ana, Ata, Həkim yoxsa Tibb Bacısının?). Nə üçün müxtəlif baxışılar önəmlidir? Əgər ən vacib məsələ ananın və uşağın sağlamlığıdırsa o zaman bu uğuru göstərmək üçün hansı indikatorlardan istifadə edilməlidir?<br><br>4. **Təlimçinin İşi:** Paver Poynt təqdimatı hazırla.<br><br>5**. Qrup İşi:** İştirakçıları 3 qrupa böl və onlardan həyata keçirdikləri layihələrin bir məqsədi üzrə monitorinq sistemi hazırlamalarını istə. Onlar müəyyənləşdirməlidirlər:<br>• Nə monitorinq edilir?<br>• Necə?<br>• Nə zaman?<br><br>Filipçart hazırla və onu divara yapışdır.<br><br><br><br>6. **Nəticə:** Biz nə etdik? Çətinliklər nə idi? Onları necə aradan qaldırdıq? Bunu öz işimizdə necə tətbiq edə bilərik?<br><br>*Öyrənilən əsas məqamlar*<br><br>• *Layihələrdə "M&E" (Monitorinq və Qiymətləndirmə) sistemli* |

| | |
|---|---|
| 10 dəq | *şəkildə tətbiq edilməlidir.*<br>• *İnsanlar informasiyaları toplamaqla yanaşı həm də istifadə etməlidirlər*<br>• *Məlumatlar müxtəlif mənbələrdən müxtəlif yollar ilə əldə edilməlidir*<br>• *Layihə fəaliyyətində istifadə edilməsi üçün məlumatlar şərh edilməlidir.* |
| **Zaman** | 1 saat 25 dəq |
| **Materiallar**<br><br>**Slaytlare**<br><br>**Paver Poynt**<br><br>**Flipçartlar** | • Ən azı dörd rəngdə markerlər;<br>• Flipçartlar və qələmlər;<br>• Standart PCM kurslarında hazırlanan məntiq feymləri;<br><br>M&E Matriksi; M&E Matriks Nümunələri; Məlumatların toplanması metodları; Müxtəlif indikatorlar,; PPT<br><br>Var<br><br>Var |

## M&E (Monitorinq və Qiymətləndirmə) Matriksi

| Əsas Dəyişikliklər | Informasiya və Indikatorlar | Məlumat üçün Tələblər | Məlumatların Toplanması Metodu | Formalr, Təlimlər, resurslar və s. | Təhli, Hesabatlılıq Və Şərhlər |
|---|---|---|---|---|---|
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |

# M&E Matriksı 2-ci Hissəsi Nümunə

| Əsas Dəyişikliklər | Indikatorlar | Tələb Edilən Məlumatlar | Məlumatların Yığılması Metodu |
|---|---|---|---|
| Məsələn, Qadınların Hüquqların Qorunması | Qadənların həyatlarının əhəmiyyətli hissəsi ilə bağlı fikirləri; Assosiyalarda iştirakı; seçkilərdə qazandıqları yerlərin sayı | Sorğuda iştirak edən qadınların say; tədbirlərdə iştirak edən qadınların xüsusi çəkisi %; idarəetmə sistemində qadınların payı % | Sorğu sualları / Təsir qrupları; Statistik məlumatlar |
| | | | |
| | | | |
| | | | |
| | | | |

# Əsas Məlumatların Toplanması Metodu

1. **Səndələrin Təhlili**

   Hansı məlumatlar hal-hazırda varımızdır?
   Məsələn, səhiyyə məntəqələrinin sayı, əhalinin statistikası, məktəbə gedənlərin sayı, köhnə foto şəkillər, bələdiyyə rəqəmləri, universitetdə kurslar, coğrafi xərtələr, və s.

2. **Steykholder Təhlili**

   M&E prosesində kim cəlb edilməlidir?
   Məsələn, layihədən faydalananlar layihənin əməkdaşları, layihənin icra olunduğu ərazidə yaşayanlar və s. Əsas steykholderlərin prosesə necə cəlb olunacağını müəyyənləşdir.

3. **Fiziki Ölcmələr**

   Çəki (məsələn, əkin sahələri), ölçü (məsələn, hazır xalçalar).

4. **Birbaşa Müşahidə**

   İcmalara, səhiyyə məntəqələrinə, fermaralara, məktəblərə olan birbaşa səfərlər. Daha yaxşı olar ki, bir yerə bir neçə insane getsin sonra isə məlumatlar müqayisə edilsin.

5. **Müsahibələr və Sorğular**

   Müsahibələr üz-üzə həyata keçirilməldiri və ya bu telefon vasitəsi ilə də ola bilər. Sorğular ən çox istifadə edilən metoddur və bu zaman suallara cavablar doldurulur.

6. **Yarı-struktur müsahibələr**

   Müsahibələr adətən əvvəlcədən hazırlanmış suallar əsasında aparılır, bununla belə, müsahibələr zamanı müəyyən yeni suallar da yarana bilər. Bu suallar və cavablar da layihənin qiymətləndirilməsinə daxil edilməlidir.

7. **Nümunələr**

   Müəyyən insanlar, ailələr, kəndlər, təşkilatlar və s. ilə bağlı xatirələrin və ya faktların qeydə alınması. Bu eyni zamanda videoyaya da çəkilə bilər.

| **Layihə Kontekstində Dəyişikliklərə Adaptasiya**<br>Yerli təlimçı tərəfindən doldurulmalıdır | |
|---|---|
| **Məqsədlər** | |
| **Proses** | |
| **Zaman** | |
| **Materiallar**<br><br>**Slaytlar**<br><br>**Paver Poynt**<br><br>**Flipçartlar** | |

# Müxtəlif İndikatorlar

| Ərzaq Təhlükəsizliyi | Yoxsulluq | Yerli təşkilatların dəstəklənməsi | Qadınların Dəstəklənməsi |
|---|---|---|---|
| • Ərzaq İstehsalında dəyişikliklər<br>• Ərzaq yetişdirilən sahələrdə dəyişikliklər<br>• Ərzaq istehlakında dəyişikliklər<br>• Bazara çıxışda dəyişikliklər<br>• Uşaqların qıdalanmasında dəyişikliklər<br>• 5 yaşından aşağı uşaqların qidalanmasında dəyişikliklər | • Ailələrin real gəlirlərində dəişikliklər<br>• Fermer təsərrüfatlarının gəlirlərinin bölgüsündə dəyişikliklər<br>• Kapitala çıxışda dəyişikliklər<br>• Əməkdə dəyişikliklər<br>• Əsas xidmətlərin (elektrik, məktəb, su və s.) təchizatında dəyişikliklər | • Yerli səviyyələrdə qrupların qərarların qəbulunda iştiraklarında dəyişikliklər<br>• İcma qurumlarının yerli hakimiyyətlərdə maraqlarının qorunması üçün lobbiçilik fəaliyyəti<br>• İcma qurumlarını öz sosil-iqtisadi hüquqlarının qorunmasındakı dəyişikliklər<br>• Yerli qurupların öz layihələrinin idarəedilməsindəki dəyişikliklər | • Orta məktəbə gedən qızların sayındakı dəyişikliklər<br>• Layihə ərazisindəki aktiv qadın qruplarının sayındakı dəyşikliklər<br>• Qadın qruplarına təqdim edilən kreditlərin məbləğindəki dəyişikliklər<br>• Ailədəki qərarlar qadınların təsir imkanlarındakı dəyişikliklər<br>• Yerli səviyyədə qadınların qərar vermədə iştirakındakı dəyişikliklər |

# Systemlər və Dəyişikliklər

## Sistem nədir?

*Sistem:* müxtəlif elementlərin birləşməsi və onları bir-biri ilə əlaqələndirməsidir.

## Nə üçün sistemlər haqda düşünürük?

Daşın və Quş Tullanması

Daşı tullayan zaman hara düşəcəyini bilirsinizmi?

*Daşın trajektoriyası sadəcə materiallar qanununa əsasən müəyyənləşdirilə bilər*

Canlı quşu tullayan zaman hara qonacağını bilirsinizmi?

Bunu fərz etmək müəyyən qədər asan olsa da bu birbaşa quşun özündən asılı olacaq.

*Bizim planlaşdırdığımız layihələr heç də bizim yaşadığımız dünyadan tədric edilməyib, əksinə onunla qarşılıqlı əlaqədədir və təsirlərinə məruz qalır. Biz proqram məntiqi hazırlayan zaman bəzən hadisələri sadələşdiririk- məhz daşla quşun fərqli trayektoriyası kimi.*

Bizim yaşadığımız humaniat sistemlər canlı orqanizmdirlər- onlar quş kimi reaksiya verirlər. Onlar proqnozlaşdırılan maşınlar deyillər. Onlar həyatdadırlar və davranışı, xatirələri və s. müəyyənləşdirə bilirlər.

*Sistemdəki kiçik dəyişikliklər məhz həmin sistemdə şərhlər və multi-şərhlər vasitəsi ilə daha böyük dəyişikliklərə səbəb ola bilər. Belə şərhlər bəzi hallarda proqnozlaşdırılmayan təsirlərə gətirib çıxara bilər. Və əgər layihə məqsədlərinə nail olursa o zaman həmin şərhlər ciddi təsirlərə səbəb ola bilərlər.*

> Hindistandakı Aqrar Tədqiqat Mərkəzi yerli taxıl yetişdirən fermerlərlə işləyərək onların məhsuldarlığını və son nəticə də gəlirlərini artırmağa çalışırlar. Bu fəaliyyətə başladıqdan 7 il sonra onlar məhsuldarlığın 20 senter artırılmasına nail ola bilmişdirlər. Bununla belə, fermerlər müəyyən müddətdən sonra əvvəlki toxumlardan istifadə etməyə başladılar və yeni yetişdirilən taxıllardan qida kimi istifadə etdilər. Nəticə də artan məhsuldarlığı davam etdirmək mümkün olmadı.

**Nə üçün bu inkişaf proqramları üçün vacibdir?**

Orqanizm kimi inkişaf proqramları açıq sistemlərdə fəaliyyət göstərirlər və bunula da dəyişikliklərə reaksiya verə bilirlər.

Sistemli düşünmə insanlara daha böyük təsvirlər əldə etməyə imkan verir. Bu eyni zamanda aşağıdakılara yardım edir:

1. Daha böyük sistemləri başa düşməyə imkan verir və bunula eləcə də təsirləri müəyyənləşdirmək mümkündür.
2. Vaxt dəyişikliklərini qiymətləndirmək olur– məsələn, keçmişə və indiyə söykənərək gələcəyi proqnozlaşdırmaq.
3. Münasibətlərin və qarşılıqlı əlaqələrin əhəmiyyətini qiymətləndirmək olur.
4. Sistemin daha yaxşı işlədiyi yolları müəyyənləşdirməyə kömək edir.
5. Müəyyən kontekstdə dəyişikliklərə uyğun olaraq layihədə düzəlişlər etməyə imkan verir.

Sistemərin başa düşülməsi bizim fəaliyyətimizin necə proqnozlaşdırıla bilməyən olduğunu qəbul etməyə və eləcə də neqativ nəticələrdən qaçmağa yardım edir.

## Startegiyanın Formalaşmasl: Mintzberg[1] Modeli




- **Cəhdlər Startegiyasl** strateji qollara söykənir
- **Çatdırlma Strategiyas** bu reallıqda baş verən hadisələri izah edir
- **Reallaşmayan Strategiya** həyata keçirilməsi mümkün olmayan fəaliyyətləri özündə birləşdirir
- **Fövqalədə Strategiya** orjinal strategiya reallaşa bilməyəndə xarici aləmdəki dəyişikliklər nəzərə alınmaqla yeni strategiyanın yaradılmasını nəzərdə tutur
- **Realaşan Strategiya** bu məhz çatdırılma və fövqalədə strategiya nəticəsində reallaşan strategiyadır (onlardan birinci real strategiyanın tərkib hissəsidir, digəri isə xarici dəyişikliklər ilə əlaqədar olaraq hazırlanan strategiyadır).
- **Strateji Öyrənmə** bu menecerlərin şərhləri əsasında strategiyaların qiymətləndirilməsi və gələcəkdə daha yaxşı strategiya hazırlamaq üçündür.

---

[1] Mənbə: Mintzberg H and Quinn JB (1992) *The Strategy Process: Concepts and Contexts,* Prentice Hall, USA.

## Şəkil Nümunəsi

